Azərbaycan Milli Kitabxanası

BIBLIOTECA NAȚIONALĂ
REGISTRATURĂ
IESIRE Nr. 8131
2020 Luna 12 Ziua 02

BIBLIOTECA NAȚIONALĂ A ROMÂNIEI

BIBLIOTECA NAȚIONALĂ A ROMÂNIEI
BDUL UNIRII NR. 22, SECTOR 3
030833 BUCUREȘTI - ROMÂNIA
CF: 6312079
TEL.: 021 314 24 34; 021 315 70 63
FAX: 021 312 33 81
E-mail: biblioteca@bibnat.ro

# AZƏRBAYCAN MİLLİ KİTABXANASI VƏ RUMINİYA MİLLİ KİTABXANASI ARASINDA ANLAŞMA MEMORANDUMU

Yazılı mədəniyyət sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi və təbliği, Rumıniya və Azərbaycan arasındakı mədəni əməkdaşlığı inkişaf etdirmək və iki ölkə arasındakı dostluq münasibətlərinin daha da gücləndirilməsinə töhfə vermək məqsədilə, milli qanunvericiliyin tələblərinə uyğun olaraq, bundan sonra "Tərəflər" olaraq adlanacaq

Rumıniya Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən ictimai mədəni müəssisə olan Rumıniya Milli Kitabxanası (22, Unirii Blvd. 030833, Sector 3, Buxarest, Rumıniya)
və
Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən dövlət mədəniyyət müəssisəsi olan Azərbacyan Milli Kitabxanası (AZ1000, Azərbaycan, Bakı şəhəri, Xaqani 29),

Razılığa gəldilər ki:

**Maddə 1 – Mövzu**
Tərəflərin qarşılıqlı məqsədlərindən birinin milli və beynəlxalq kontekstdə fərqli peşəkar vasitələrdən istifadə etməklə milli yazılı mədəniyyətlərin inkişaf etdirilməsi və təbliği olduğunu nəzərə alaraq, bu Anlaşma Memorandumunun əsas məqsədi iki kitabxana arasında əməkdaşlıq əlaqəsi yaratmaqdır.

**Maddə 2 – Məqsədlər**
1-ci maddəyə müvafiq olaraq, bu Anlaşma Memorandumunun məqsədləri aşağıdakılardır:
1. YUNESKO-nun Baş Konfransında qəbul edilmiş Beynəlxalq Nəşr Mübadiləsinə dair Konvensiyaya müvafiq olaraq (Paris, 1958), beynəlxalq kitab mübadiləsinin inkişaf etdirilməsi;
2. Yazılı mədəniyyət sahəsində beynəlxalq layihələrin həyata keçirilməsi üçün qarşılıqlı dəstək və birgə tədbirlər görülməsi;
3. Yazılı mədəniyyət sahəsində ikitərəfli mədəni, elmi və peşəkar mübadilə.

Bu Anlaşma Memorandumuna əsasən həyata keçirilməsi nəzərdə tutulan ümumi fəaliyyətlərin təfərrüatları Tərəflər arasında bağlanan sonrakı sənədlərə daxil ediləcək.

**Maddə 3 – Müdiriyyət**
Bu Anlaşma Memorandumunun icrası onun məqsəd və müddəalarına uyğun olaraq,
- Karmen Mıhaıu, Rumıniya Milli Kitabxanasının baş direktoru,
- Kərim Tahirov, Azərbaycan Milli Kitabxanasının direktoru

tərəfindən təmin ediləcəkdir.

**Maddə 4 – Yekun müddəalar**

Anlaşma Memorandumu Tərəflər arasındakı əməkdaşlığın artırılması və inkişaf etdirilməsi baxımından bağlanır və Tərəfdaş dövlətlər üçün beynəlxalq hüquq çərçivəsində məcburi razılaşma təşkil etmir. Bu Anlaşma Memorandumunun heç bir müddəası Tərəflər üçün hüquqi öhdəliklərin yaradılması kimi təfsir olunmayacaq.

Bu Anlaşma Memorandumu hər iki Tərəf imzaladığı andan etibarən qüvvəyə minəcək.

Əgər lazım gələrsə, Tərəflər əlavə sənədlər tərtib etməklə yazılı razılıq əsasında bu Anlaşma Memorandumuna əlavə və dəyişikliklər edə bilərlər.

Bu Anlaşma Memorandumu Tərəflərdən biri digərinə yazılı formada Memoranduma xitam vermə istəyi barədə məlumat vermədiyi təqdirdə 5 il müddətində qüvvədə qalacaq. Xitam verilmə digər Tərəfin bildirişi aldığı tarixdən etibarən 1 ay ərzində baş verəcək. Qüvvədə olma müddəti başa çatdıqdan sonra Tərəflər başqa bir müqavilə imzalamaqla anlaşma memorandumunu yeniləyə bilərlər.

Bu Anlaşma Memorandumu Tərəflər üçün heç bir maliyyə sərfinə səbəb olmur.

Hər biri bərabər səlahiyyətli olmaqla, iki orijinal nüsxədə, Azərbaycan, Rumın və İngilis dillərində 2020-ci ilin noyabr ayında imzalanmışdır. Memorandumun təfsiri ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

| AZƏRBAYCAN MİLLİ KİTABXANASI | RUMINİYA MİLLİ KİTABXANASI |
|---|---|
| Prof. Kərim TAHİROV | Karmen MIHAIU |
| Direktor | Baş direktor |